# Baharda çiçəklər acar



*İltimas SƏMİMİ*

### GECİKƏCƏYİK

Görüşməyə vaxt olmadı
Sən də tələsirdin,
Mən də.
Yollar sükutu sevməz,
Hardasa bir ayaq səsi də,
Yollara təsəllidir.
Bizi darıxmağa qoymayan
Xatirələr,
Və bu sevgi.
Arxamızca əlləri uzalı qalan,
O səs sənə tanışdırmı?
Bir az bahar ətirli,
Rəngi bəmbəyaz qartək.
Bir az xatirə dadır,
Durub geriyə baxma.
Gülüm, yeyin yeriyek,
Yoxsa, gecikəcəyik...
02 yanvar, 2020

### BAXIŞLAR

Keçmişi xatırlamaqdan
Sən də yorularsan.
Yollara baxdıqca,
İnsan min xəyal edir.
İtirdiklərini
Bir-bir xatırladıqca,
Gözlərin bulud-bulud dolur.
Yenə sükut,
Yenə bir xoş
Təbəssümə həsrət qalmış,
Üzünün nisgili.
Və ümidsiz baxışlar.
03 yanvar, 2020

### DÜZƏLƏ

Hələ köks ötürüb darıxacaqsan,
Zamanın hər anı min illər kimi.
Axan göz yaşların ürək sirdaşın,
Budur həyat yolun bir əsər kimi.
Bu qış da üstündən yel tək ötəcək,
Dərdin nə olduğu tənhalar bilir.
Yuxusuz gözləri yoran intizar,
Yenə xatırına de, nələr gəlir.
Darıxır, darıxır, darıxır ürək,
Yazı da qış kimi, ötəndə belə.
Axan göz yaşını gizlətmək olmur,
Çətin talesizin işi düzələ.
03 yanvar, 2020

### KEÇİB GEDƏR ƏBƏDİ

Bu da dostumun dilindən
Süzülən "təsəlli" sözü.
Hopur yaddaşıma,
Söz -söz,
Sətir-sətir.
Yaddaşım payız yağışı deyil,
Bir az bahar ətirli,
Bir az torpaq qoxur.
Qaranlıqlar düşmənim,
Sükutu sevmirəm mən.
Üstümə çökən bu duman da çəkilər.
Bir az dözüm,
Bir az tab.
Bir az da, vaxta səbir,
Keçib gedər bu ağrı,
Keçib gedər əbədi...
04 yanvar, 2020

### ZAMAN BƏLLİDİR

Bəlkə, mənim kimi gecikir hamı,
Bəlkə, vaxtımızdan gec doğulmuşuq.
Ey evin güncündə küncənişinlər,
Bəlkə, biz əvvəllər yağış olmuşuq.
Bəlkə, səhraları dolaşan külək,
Bəlkə, qaynar bulaq, çağlayan dəniz.
Bəlkə, aslanlara adi bir şikar,
İndi dayanmışıq səssiz-səmirsiz.
Hələ keçmişimiz açılmayan sirr,
Hələ gözümüzdə şirin bir yuxu.
Geriyə dönməyə yollar axtaran,
Hopub yaddaşına bir acı qorxu.
Qalxıb danışmağa sözün yoxdursa,
Həyat səndən ötrü bitən bir yoldur.
İnsanın qəlbində dözüm də bitir,
Ömür zaman adlı ötən bir yoldur.
Bəlkə, tənhalığa öyrənib hamı,
Açılan hər sabah bir təsəllidir.
Gah payız yağışı, gah qış sazağı,
Bəlkə, vaxt bəllidir, zaman bəllidir.
05 yanvar, 2020

### KİMƏ DƏRD

Tanışdır mənə
Bu yağışın pıçıltısı.
Bir az da xatirə qoxuyur.
Keçmişi xatırlamaq
Kimə sevinc,
Kimə dərd.
Qulağa axan səslər kimi,
Demə, hisslər də yad olur.
Üst-başı toz içində,
Mənim nimdaş yaddaşım.
Xatırlaya bilmirəm,
Bu gələn kim,
Bu səs kimin səsidir.
Bu səsin kölgəsində
Mürgüliyən hisslərim,
Bir də, xoş xatirələr.
Keçmişi xatırlamaq
Kimə sevinc,
Kimə dərd...
05 yanvar, 2020

### HƏVƏSİM DƏ QALMAYIB

Bu yağışın altında
Neçə səs öldü,
Gözlərimin
Qarasına bürünən xatirələri
Bir kimsə oxuya bilməz.
Birgə ötdük bu yolu
Döydüyümüz qapılar
Üzümüzə açılmadı.
Zaman bir ağac deyil,
Dura yerində belə.
Vaxt da ötür, əzizim,
Daha güzgülənməyə
Həvəsim də qalmayıb.
13 yanvar, 2020

### DÖZƏK BİZ GƏRƏK

Bir ovuc torpaqdır, bir parça daşdır,
Nə hicran anlayar, nə kədər bilər.
Bir əlçim kağızdır susub danışmaz,
Nə uzun gecələr, nə səhər bilər.
Küləkdən gileyli, yağışa həsrət,
Dodağı cadardır xatirələrin.
Kimdi xatırlayan ötən çağları,
Bəlkə, anlamırıq, göylərdir yerin.
Gəzək o çağları biz qarış-qarış,
Çıxar qarşımıza tanışlar, bəlkə.
Hələ danışmağa ürəkdə həvəs,
Bircə üstümüzdən gedə bu kölgə.
Bu bahar çağında sevinək bir az,
Budur köksümüzdə çırpınan ürək.
Taledən incimək, bəlkə, günahdır,
Əsən küləklərə dözək biz gərək.
14 yanvar, 2020

### AYAQ SƏSLƏRİM

Əlindən düşüb qırılan
Bu küçə,
Bir kimsəsizin son harayıdır.
Son ümidi də, belə qırıldı,
Daha bu bahar əvvəlkitək olmayacaq.
Yağışı bol payızın da,
Dadı itəcək...
Küləyi sevməyən yalqızların
İçində bir payız fəsli.
Xoş bir sözə həsrət qalan
Küçələr.
Və o küçələrdə,
Ümid-ümid can verən,
Ayaq səslərim...
14 yanvar, 2020

### DÖZ DEDİN

Döz dedin,
Daşa da, torpağa da,
Dondu dodağında son söz.
Kimi susur,
Kimi sükutu özünə dərd bilir.
Bu yer kürəsi məbhəs imiş,
Bir ömür taleyindən küsmək,
Yaşadıqca bezikmək,
Bezikdikcə yaşamaq.
Yollarda ölən səslər kimi,
Səsi göylərə yetməyən
Yalqızların içində
Yarpaq -yarpaq solan arzular...
Bir də, üstümüzdə gəzdirdiyimiz,
Uğursuz taleyi.
14 yanvar, 2020

### BELƏ TEZ GƏLƏ

Ötər aylar, illər payızlı, qışlı,
Baharda çiçəklər acılacaqdır.
Bu vaxtsız, vədəsiz səfərim, köçüm,
Anamın qəlbində əbədi dağdır.
Deyer, bəxtsiz balam, talesiz balam,
Nə tez xatirəyə çevlirdin belə?
Hələ tay- tuşların şəvədir saçı,
Rəvamı ölüm də, belə tez gələ.
Torpaq istidirmi, yoxsa soyuqdur,
De, necə anasız dözürsən belə.
Deyərsən, balasız dözdüyün kimi,
Hökum ilahidən səbir var hələ.
14 yanvar, 2020

### TALESİZ DOĞULANLARIQ

Dostum, dünyaya
Yorğun-yorğun baxan,
O yol, o ağac
Bəlkə də, taleymizi oxuyur.
Yol ömrü,
Ağac taleyi yaşaya bilmədik,
Dəniz olmaq da, mümkün deyilmiş.
Qulağımıza axan səslər
Keçmişi xatırladır.
Qarşıdakı o qapı,
Kimə dost,
Kiməsə düşmən kimidir...
Sus, o qapı
Danışanları sevmir.
Gözümüzü yoran bu yuxusuzluq
Başımızın üstündə
dayanan bulud kimidir.
Dərdi olmayanlar bizi duymaz,
Biz bəxtsiz,
Talesiz doğulanlarıq...
17 yanvar, 2020